# Qorxmaz gizir

*Tarixi qəhrəmanlar yazır. Onların yazdıqları tarix mürəkkəblə vərəqə deyil qanları ilə torpağa yazılır. O tarix torpaqdan xalqın damarlarına hopur. Vətənin hər bir ləyaqətli övladı o tarixi sətir - sətir oxuyur və o tarixi yazanlardan biri olmaq üçün yaşayır. Yaşat-*



*maq üçün yaşayır. Tarixə nəzər saldığımızda çox qəhrəmanın qəhrəmanlıq salnaməsinə şahid oluruq. İstər uzaq keçmişimizdə, istərsə də yaxın keçmişdə böyük qəhrəmanlıq salnamələri yazılıb. II Qarabağ müharibəsi zamanı həmin qəhrəmanlıq salnaməsini yazan qəhrəmanlardan biri də Nağıyev Elfaq Azad oğlu oldu. Hadrutda ilk dəfə Azərbaycan bayrağını dalğalandıran bu qəhrəmanın əzminə həm döyüş yoldaşları, həm də vətən torpaqları şahiddir.*

Nağıyev Elfaq Azad oğlu 26 dekabr 1996-cı ildə Gədəbəy rayonunun Parakənd kəndində Azad müəllimin və Aytəkin xanımın ilk övladı olaraq dünyaya göz açmışdı. Ailənin ümidləri onunla bərabər cücərməyə başlamışdı. Özündən sonra dünyaya gələn qardaşı Elvanla aralarında iki yaş fərq olsa da onlar əkiz qardaşlar kimi birbirini hiss etmişdilər. Uşaqlıqdan birbirindən ayrılmayan qardaşlar hər zaman tərbiyələri, davranışları ilə valideynlərinin başını uca etmişdilər. Gün gəldi Elfaq nəinki ailəsinin, bütün xalqının başını uca elədi.

Elfaq Gədəbəyin vətənə yetirdiyi vətən qeyrətli bir oğul olmuşdu. Uşaqlığı Gədəbəyin dağ-dərəsində ötən Elfaq 2003-cü ildə Gədəbəy rayon Parakənd kənd tam orta məktəbinə qədəm qoymuşdu. Daha sonra ailəsinin Bakı şəhərinə köçməsi səbəbindən təhsilini 2007-ci ildən Bakı şəhəri Sabunçu rayonu Zabrat 1 qəsəbəsi 307 saylı tam orta məktəbdə davam etdirmişdi. IX sinfi bitirdikdən sonra 2012-ci ildə Şamaxı Humanitar Kollecinə qəbul olmuş və bədən tərbiyəsi müəllimliyi ixtisası üzrə təhsil almışdı. 2016-cı ildə təhsilini başa vurduqdan sonra iyul ayında həqiqi hərbi xidmətə getmişdi. Həqiqi hərbi xidmətə getdiyi gün Elfaq sanki ən böyük arzusuna çatmışdı. O özünü hər zaman bir hərbçi kimi xəyal edərmiş. Elə xidmətini başa vurduqdan sonra da ixtisası üzrə deyil, arzusunda olduğu hərbçi peşəsinə yiyələnmək fikrini valideynləri ilə bölüşmüşdür. Valideynləri Elfaqın necə cəsarətli, qorxmaz olduğunu gözəl bilirdilər. Onlar bilirdilər ki, vətənə elə Elfaq kimi hərbçi oğullar gərəkdi. Elfaq 2019-cu ildə gizirlik kursunu uğurla başa vurduqdan sonra Ağcabədi rayonunda yerləşən N saylı hərbi hissədə gizir kimi xidmətə başlamışdı.

Qəlbinin gözəlliyi gözlərindən oxunurdu Elfaqın. Sevgi dolu baxırdı dünyaya. Heç vaxt görmədiyim bu qəhrəmanı indi şəkillərdə gördüyümdə min ilin tanışı kimi hiss edirəm. O baxışların yol tapdığı bir ürək sahibi var idi. 6 il sevdiyi xanımla 26 iyul 2020-ci ildə nişanlanmışdı Elfaq. Həmin gün Aytəkin ananın sevinci bu dünyaya sığmayacaq kimi coşub-daşmışdı. Axı nə bilərdi ki, cəmi iki ay sonra Elfaqa toy mağarı deyil, yas mağarı qurulacaq.

*Elfaqın vətən sevgisinin son ünvanının şəhadət olacağı onun sözlərindən bəlli olmuşdu. Hələ 2016-cı ildə Aprel döyüşləri zamanı "Kaş mənim də cənazəmin yanında atam " Vətən sağ olsun!" deyə" demişdi. Vətən müharibəsi başlamazdan öncə sentyabrın 11-də öz şəkilləri ilə "Şəhid" musiqisinin sədaları ilə video yığmışdı. Ailəsi Elfaq şəhid olduqdan sonra bu videonu onun telefonunda görmüşdü.*

II Qarabağ müharibəsi başlayan ilk günlərdən döyüşə qatılan qəhrəmanlardan biridir Elfaq. Vətənin Haqq savaşına tək Elfaq deyil qardaşı Elvan da könüllü olaraq qatılmışdı. Elfaq ön cəbhədə, qardaşı Elvan isə arxa cəbhədə mübarizə aparmışdı. Elfaq ilk olaraq Füzuli rayonu uğrunda gedən döyüşlərdə böyük rəşadət göstərmiş, sonra Cəbrayılın azadlığı uğrunda mübarizə aparmışdı. Hadruta ilk qədəm basan qəhrəmanlardan biri olan Elfaq şanlı bayrağımızı Hadrutda ilk dalğalandıran qəhrəman kimi adını tarixə yazmışdı. "Bu bayraq dalğalansın deyə vuruşuruq. Bu bayrağa canımız fəda." deyən qəhrəmanın tək amalı Azərbaycan bayrağını düşmən tapdağında qalan bütün torpaqlarımızda dalğalandırmaq idi. Uzun müddət döyüşdə olduğunu ailəsindən gizlədən Elfaq Qusarda olduğunu demişdi. O, oktyabrın 15-də ailə üzvləri ilə danışan zaman döyüşdə olduğu məlum olmuşdu. Atasına "Elimizin-obamızın, bütün şəhidlərimizin qisasını alırıq. O yağılar kimdir ki, bizim qarşımızda dayanalar? Biçə-biçə gedirik. Bir qarış torpaq verməyik. Az qalıb bitirib gələcəm." deyib. Düşmənin xeyli sayda canlı qüvvəsini məhv edən qəhrəmanın son döyüşü 21 oktyabrda Xocavənd uğrunda olub. Son izi də, son "Allahu-Əkbər" sözü də o torpaqda qalıb.

### Şəhid Elfaq

Bilirdin yolunun sonunda durur,
Şəhadət adlanan ən ali məqam.
Deyirdin "Qarabağ düşmənlərdədi,
Elə bil dünyaya özgəyəm, yadam."

Vətəndə qürurla addımlamaqçün,
Dərdli Qarabağa qanla yol çəkdin.
Sağaldıb Hadrutun işğal yarasın,
İlk dəfə Hadrutda sən bayraq dikdin.

İşğaldan qurtulan hər qarış torpaq,
Qan ilə qüsl alır və paklanırdı.
Kiminin dediyi sonuncu sözü,
Kiminin nəfəsi donub qalırdı.

Sənin son nəfəsin qalan Xocavənd,
Ümid qapısını taybatay açdı.
Vətənin boynuna sarılan ümid,
Azadlıq nurunu vətənə saçdı.

Azadlıq arzusun çin eləsən də,
Elfaq, arzular boynunu bükdü.
Oğlunu vətənə qurban edən gün,
Atanın ruhuna qaranlıq çökdü.

Oğul xonçaların düzüb yan-yana,
Qəlbində bir tonqal yandırdı anan.
Onun xəyalında yer almamışdı,
Bayraqlı tabutda döndüyün o an.

Məzarın önündə çarəsiz qaldı,
Bəyaz yox qaraya bürünən yarın.
Müharibə adlı sərt əsən külək,
Yerlə yeksan etdi çox arzuların.

Qardaşın dünyadan köçdüyün zaman,
Dayaqsız, kimsəsiz qaldığın sandı.
Hər kəs acısını dilə gətirdi,
Onunsa ürəyi köksündə yandı.



Valideynləri həm Elfaq, həm Elvan üçün nigaran idilər. Bir neçə dəfə Elvanın yanına gedə bilsələr də Elfaq öndə olduğu üçün onun yanına getmək mümkün olmamışdır. Övladlarını yaxşı tanıyan ata-ananın narahatlığı əbəs deyildi. Onlar Elfaqın düşmənə nə qədər nifrət bəslədiyindən xəbərdar idilər. Elfaqın susan telefonu hər ötən an o narahatlığa daha böyük zəmin yaradıb. Oktyabrın 22-də gələn bir telefon zəngi elə bil dünyanın son nöqtəsi olub. "Elfaq yaralıdı" sözlərini eşidən Aytəkin ananın ürəyi bu xəbərə tab gətirməyib. Ananın hələ Elfaqın yaralandığı xəbərinə dözə bilmədiyini görən hər kəs onu oğlunun sağ-salamat olduğuna inandırıb. Deyilən yalanlardan ümidlənən ananın ürəyinə bir anlıq sevinc qonaq olub. Ancaq 23 oktyabrda sübh səhər həyətdə gələn səs-küyə eşidib eşiyə çıxan ananın dünyası başına yıxılıb. Həyətdə qurulan yas mağarını görən ananın naləsi hər kəsin ürəyinə dağ çəkib. Bu gerçəklə barışmayan Aytəkin ananın xəyallarında oğlunun vağzalı sədası ilə qapıdan girdiyi canlanıb. O an "Şəhidlər ölməz, vətən bölünməz!" şüarı ilə al bayrağa bürünmüş tabutda Elfaq evinə gətirilib. Aytəkin ana oğlunu son dəfə öpüb-qoxlayıb. 23 oktyabr səhər saatlarında Elfaqın cansız cismi Gədəbəy rayonu Parakənd kənd məzarlığında torpağa tapşırılıb.

*Elfaqdan geriyə Azad Vətən, Şanlı bayraq, yarımçıq qalan evi, nişan xonçaları, qoxusu hopub qalan bir dəst paltar və nakam arzular qalıb. Onun gedişi ilə heç kim barışmır. Hər kəs Elfaqın adını yaşatmağa çalışır. Adı dillərə dastan, musiqilərə məzmun olub. Elfaqın adına Bakının Zabrat qəsəbəsində bulaq inşa edilib. Gədəbəy rayonunun Parakənd kəndindən olan üç şəhidimizin adına eyni kənddə bulaq tikilib.*

*Gizir Nağıyev Elfaq Azad oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı , "İgidliyə görə" medalı , "Füzulinin azad olunmasına görə" medalı , "Cəbrayılın azad olunmasına görə" medalı və "Xocavəndin azad olunmasına görə" medalına layiq görülüb.*

**Manya Səxavətqızı**